**AZƏRBAYCAN UNİVERSİTETİ**
**İctimai elmlər kafedrası tərəfindən**
**tədris olunan fənlərin qısa təsviri**

**İPF- B02** ***Azərbaycan tarixi- I*** *(6 kredit, 75 saat)*

Fənnin əhatə dairəsinə tarixin öyrənmə metodu və mənbələri, tarix elminin metodologiyası və nəzəriyyəsi, Azərbaycan tarixi dünya tarixinin ayrılmaz hissəsi kimi, Türk etnoslarının Azərbaycana axını, Azərbaycan xalqının etnogenezi, dövlətçilik tarixinin başlıca mərhələləri, Azərbaycanın qədim quldar dövlətlərinin sosial quruluşunun əsas xüsusiyyətləri, Azərbaycan dövlətlərinin yaranmasının etnokultur və sosial-siyasi prosesləri, xristianlığın yayılması (Albaniya), İslamın yayılması, Azərbaycan ərazisində sosial-siyasi dəyişikliklər, IX-XII əsrlərdə Azərbaycan feodal dövlətləri, intibah mədəniyyəti, Azərbaycan monqol ağalığı dövründə, Azərbaycanın orta əsrlərdə, Yaxın Şərq və Avropa dövlətləri ilə əlaqələri, Azərbaycan dövlətlərinin yaranmasının xüsusiyyətləri, mərkəzləşmiş Azərbaycan Səfəvi dövlətinin genezis, cəmiyyətdə təbəqələşmə sisteminin formalaşması mövzuları daxildir.

**İPF- B03** ***Azərbaycan tarixi- II*** *(7 kredit, 90 saat)*

Fənnin məzmununa XVIII əsrin I yarısında Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyət - Azərbaycan xanlıqları, xarici siyasət, idarə sistemi, dövlət quruluşu, XVIII əsrin sonunda siyasi vəziyyət və mədəniyyət, XIX əsrin əvvəllərində Azərbaycanda ictimai fikir və ictimai hərəkatın xüsusiyyətləri, vahid Azərbaycanın iki dövlət arasında bölüşdürülməsi, Azərbaycan neft sənayesinə xarici kapitalın axını, Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, XIX əsrdə Cənubi Azərbaycan - mədəniyyət, iqtisadi inkişaf problemləri: ümumi səciyyəsi, cəmiyyətdə sosial dəyişikliklər, beynəlmiləlçiliklə millətçiliyin, inteqrasiya və seperatizmin, demokratiya və avtoritar tendensiyaların toqquşması, Bakıda ilk

ümumi siyasi tətillər (1902-1903), 1905-1907-ci illərdə Bakı və ətraf bölgələrdə törədilən erməni-müsəlman qırğını, Cənubi Azərbaycanda demokratik və milli hərəkat (1905-1911), Azərbaycanda siyasi partiyalar - genezis, təsnifat, proqramları, taktikaları , Azərbaycan I Dünya müharibəsi illərində, ümummilli böhran mövzuları daxil edilmişdir.

**İPF- B06** ***Türk xalqları tarixi-I*** *(6 kredit, 75 saat)*

Fənnin əhatə dairəsinə Türk xalqları tarixinin metodologiyası, mənbəşünaslığı və tarixşünaslığı, Türk xalqlarının tarixi dünya tarixinin tərkib hissəsi kimi, xalqların böyük köçü dövrünün arxeoloji irsi, Türk etnoslarının və türk linqvistikasının yayılma arealı, ümumtürk dövlətçilik tarixinin xüsusiyyətləri və inkişaf mərhələləri, Altay, Mərkəzi Asiya, Volqaboyu, Şərqi və Cənubi-Şərqi Avropada qədim və erkən orta əsr türk dövlətləri, erkən orta əsrlərdə beynəlxalq münasibətlərdə türk dövlətlərinin yeri və rolu, Avropa ölkələrinin dövlət quruculuğuna və mədəni həyatına türk xalqlarının təsiri, Türk xalqları ərəb xilafəti dövründə, İslam dininin yayılması və onun Türk xalqlarının mədəniyyətinə təsiri, feodal münasibətlərinin inkişafı, Türk xalqlarını təmsil edən yeni, beynəlxalq əhəmiyyətli dövlətlərin yaranması, Osmanlı imperiyası, Teymurilər dövləti. Səfəvilər dövləti mövzuları daxil edilmişdir.

**II İPF- B07** ***Türk xalqları tarixi- II*** *(4 kredit, 45 saat)*

Kursda iştirak edən tələbələrə Türk xalqları kapitalizm dövründə, milli hərəkat, cədidçilik, Birinci Dünya müharibəsi illərində Türk xalqlarının milli-azadlıq hərəkatı, Qərb dövlətlərinin və çar Rusiyasının Türk xalqlarına münasibətinin xarakteri, Türk dövlətlərinin çarizmin müstəmləkəçilik zülmü altına düşməsi, Türk xalqlarının sovet hakimiyyəti altına düşməsi, bolşevizm rejiminə qarşı mübarizə və onun nəticələri, Türk xalqları İkinci dünya müharibəsi illərində və müharibədən sonrakı ilk illərdə, Sovet rejimi böhranının güclənməsi, sosial-iqtisadi inkişafın istiqamətləri və ziddiyyətləri, milli münaqişələrin kəskinləşməsi, Türk dünyası XX əsrin sonu - XXI əsrin əvvəllərində, müstəqil Türk dövlətlərinin yaranması və inkişafı, Türk dövlətlərinin beynəlxalq əlaqələri, Milli dövlət quruculuğu və iqtisadi-mədəni həyat mövzuları tədris olunur.

**İPF- B04** ***Azərbaycan tarixi- III*** *(7 kredit, 90 saat)*

Tədris olunan fənn 1917-ci il fevral, oktyabr çevrilişləri, Bakıda Sovet hakimiyyətinin elan edilməsi, 1918-ci il mart soyqırımı, Bakı XKS-nin təşkili və milli müdafiə əleyhinə fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin (may 1918 – aprel 1920) fəaliyyəti, xarici hərbi müdaxilə, nəticələri, təsiri, mühacirət, Zaqafqaziya Komissarlığı və Seyminin yaradılması, AXC-nin süqutu, Azərbaycan SSR-in təşkili, birpartiyalı siyasi rejimin yaradılması, 20-ci illərdə ölkənin sosial-iqtisadi vəziyyəti, YİS və Azərbaycanda onun xüsusiyyətləri, Azərbaycanda sosializm kursu, Azərbaycan II Dünya müharibəsinin ilk dövründə, 1917-1946-cı illərdə Cənubi Azərbaycan, Müharibədən sonra Azərbaycanın sosial-iqtisadi inkişafı, ictimai-siyasi həyat və mədəniyyət, 60-80-ci illərdə Azərbaycanda sosial-iqtisadi inkişafın başlıca problemləri, 40-80-ci illərdə Cənubi Azərbaycan, Azərbaycan 1985-1991-ci illərdə, Azərbaycan 1991-2009-cu illərdə mövzularını əhatə edir.

**İPFS-B09** ***Asiya-Afrika ölkələri tarixi*** *(5 kredit, 76 saat)*

Fənn dünyanın ən böyük iki qitəsində yaşayan xalqların, 100-dən artıq dövlətin tarixindən bəhs edir. Kursun tədrisi xronoloji bölgüyə əsasən XVII əsrin birinci yarısından başlayır və I dövr 1640-1642 və 1870-1871, II dövr isə 1870-ci ildən 1918-ci illəri əhatə edir. Asiya və Afrika ölkələrinin ən yeni tarixi I Dünya müharibəsinin başa çatması ilə əlaqədar dünyada geosiyasi vəziyyətin dəyişməsi ilə başlayır. Bu dövr 1918-1945-ci illəri əhatə edir. Asiya və Afrika ölkələrinin müasir tarixi isə II Dünya müharibəsinin sona çatması ilə əlaqədar XX əsrin sonu və XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edir. Tədris prosesində yuxarıda sadalanan dövlətlərin hamısının xronoloji ardıcıllıqla tarixi öyrənilir.

**İPF- B11** ***Orta əsrlər tarixi-I*** *(5kredit, 60 saat)*

Orta əsrlər tarixi V əsrdə Roma imperiyasında quldarlıq quruluşunun dağılmasından XVII əsrin ortalarında İngiltərədə burjua inqilabının qələbəsinə qədər olan dövrü əhatə edir. Lakin bu şərtidir, belə ki, Avropaya nisbətən Asiyada quldarlıq quruluşunun dağılması və feodal münasibətlərinin meydana çıxması III əsrə təsadüf edir. Quldarlıq quruluşundan fərqli olaraq feodalizm quruluşunda

bütün sahələrdə, o cümlədən maddi və mənəvi mədəniyyətin, məhsuldar qüvvələrin inkişafı sahəsində böyük irəliləyişlər baş vermişdir. Orta əsrlər dövrü bizə feodalizmin meydana gəlməsi, inkişafı və süqutunu öyrədir. O dövrdən günümüzə gözəl bədii əsərlər, o cümlədən xalq yaradıcılıq abidələri, gözəl memarlıq, rəssamlıq, poeziya nümunələri miras qalmışdır. Bir sıra elmi fikrin ilk uğurları da həmin dövrün məhsuludur.

**İPF- B12** ***Orta əsrlər tarixi-II*** *(6 kredit, 75 saat)*

Kursda iştirak edən tələbələrə orta əsrlərdə Azərbaycanın dünya dövlətləri ilə iqtisadi, siyasi, mədəni əlaqələri geniş şərh olunur. Azərbaycan dünya mədəniyyətinə və elminə Nizami Gəncəvi, Füzuli, Əbdülbaği Bakuvi, Əbdülqadir Marağı, Əcəmi Əbubəkr oğlu Naxçıvani, Nəsrəddin Tusi kimi alimlər, memarlar, şairlər vermişdir. Sovet dövründə orta əsrlər tarixinin metodoloji əsasını marksizm-leninizm təlimi təşkil edirdi. Həmin dövrdə mühazirələr bu əsaslar üzərində tərtib olunurdu. Hətta adi bir qaçaqçılıq və quldurluğa "xalq üsyanı" donu geydirilirdi. Mülki, ictimai-siyasi, mədəni tarixə az fikir verilirdi. Hazırda isə mühazirələrdə orta əsrlər dövründə baş verən hadisələrə real və obyektiv yanaşılmışdır.

Semestrin sonunda tələbələr feodal istehsal üsulunun bəşəriyyət tarixində yeri, feodalizmin xarakterik cəhətləri, üstqurumun özünəməxsus xüsusiyyətləri, feodalizmin iqtisadi əsasları, o cümlədən torpaq üzərində feodal mülkiyyətinin yaranması və s. haqqında məlumatlı olurlar.

**İPFS-B11** ***Qafqaz xalqları tarixi*** *(6 kredit, 75 saat)*

Kursda iştirak edən tələbələrə Qafqaz xalqlarının tarixinin metodologiyası, mənbəşünasılığı və tarixşünasılığı haqqında məlumat verilir. Fənnin əhatə dairəsinə Qafqaz xalqları ən qədim dövrlərdə, Qafqaz soylarının əsas məskunlaşdığı areal, dövlətçiliyin yaranması, Qafqaz xalqları tarixində feodal münasibətləri, din və dövlətçilik, cənubi və şimali Qafqaz ərazilərində dövlətçilik, gəlmə soyların Qafqaz ərazisində yeri, Qafqaz xalqları yadelli işğalçılarla mübarizədə, orta əsrlərdə Qafqazda dövlətçilik, Qafqaz xalqları Sasani-Bizans-Ərəb münasibətlərində, Qafqaz xalqları XI-XIV əsrlər dövründə dövlətçiliyin

qorunması yollarında, Qafqaz xalqlarının mədəniyyəti, Qafqaz xalqlarının XV-XVIII əsrlər dövründəki ictimai-siyasi-təsərrüfat və dövlətçilik həyatı, Qafqaz, Rusiya-İran və Osmanlı münasibətlərində, Qafqaz dövlətlərinin yeni ictimai-siyasi vəziyyətləri, XVI-XVIII əsr Qafqaz xalqları mədəniyyətinin əsas istiqamətləri, XIX əsrdə Qafqazın Rusiya tərəfindən işğalı, Şimali Qafqazda milli zəmində ziddiyyətlər, Rusiyanın Qafqaz xalqlarına münasibəti, Qafqaz xalqları XX əsrin sonu XXI əsrin əvvəllərində, Qafqazda ictimai-siyasi vəziyyət, müstəqil Qafqaz dövlətləri və onların siyasi-iqtisadi durumu mövzuları daxil edilmişdir.

**İPFS-B01** ***Arxeologiya*** *(4 kredit, 45 saat)*

Kursda arxeologiyanın predmeti və vəzifələri, tarix elmləri sırasında arxeologiyanın yeri, əsas mənbələri, məqsədi və arxeoloji tədqiqat üsulları, arxeologiyanın bir elm kimi inkişafı tarixinə nəzər salınır. Tələbələrə Daş dövrü və onun mərhələləri, Alt paleolit, Orta paleolit və Üst paleolit düşərgələri, Daş dövrünün insan tipləri və onların xarakteristikası, Mezolitə keçid, onun xüsusiyyətləri, Mezolit dövrünün inkişafı, Mezolit dövrünün insan məskənləri və düşərgələri. Qobustan mezolit mədəniyyəti, Neolit dövrünə keçid, Neolitin əmək alətləri və silahları, Neolitdə təsərrüfat formaları, Neolit dövrünün arxeoloji abidələr, Qara dəniz sahili və Orta Asiyanın neolit məskənləri, Qafqaz neolit dövründə, Eneolit dövrünə keçid, Mis- daş dövrü, Yaxın Şərq, Şərqi Avropa və Mərkəzi Asiyada əsas metallurgiya məskənləri, təkərin ixtirası, mübadilənin yaranması, boyalı qablar və saxsı məmulatları, Orta Asiya, Zaqafqaziya, Ukraynanın və Rusiyanın eneolit dövrü abidələri, dövrün dini təsəvvürlər və sosial quruluşu mövzuları öyrədilir. .

**İPFS – B02** ***Qafqaz Albaniyası problemləri*** *(4 kredit, 60 saat)*

Fənnin məzmununu Qafqaz Albaniyasının mənbəşünaslıq bazası, Qafqaz Albaniyasının tarixşünaslığı, topoqrafiyası və lokolizasiyası problemi, Qafqaz Albaniyasında yazı məsələsi, dil problemi, Qafqaz Albaniyasının maddi mədəniyyəti, Qafqaz Albaniyasının mənəvi mədəniyyəti, Qafqaz Albaniyasında xristianlıq məsələsi, Qafqaz Albaniyasına ərazi və kulturoloji iddialar və onların

tarixi faktlarla təkzib olunması, Qafqaz Albaniyasının tarixi coğrafiyası ilə bağlı elmi mübahisələr mövzuları təşkil edir.

**İPFS-B07** ***Tarixə köməkçi fənlər*** *(4 kredit, 60 saat)*

Fənnin əhatə dairəsinə polioqrafiya, predmeti, metod və vəzifələri, tarixi tədqiqaqtlarda polioqrafiyadan istfadə qaydaları, mətnin oxunması qaydası, polioqrafiyanın nəticələrinin digər köməkçi fənlərə tətbiqi, polioqrafiyanın xronologiya və terminologiyasının yeni dövrə uyğunlaşdırılması, polioqrafiya ilə bağlı tarixi baxışlar, epiqrafiya, tarixi metrolgiya, tarixi xronologiya, stragistika, heraldika, numizmatika, tarixi toponimika və etnonimika, tarixi coğrafiya mövzuları daxildir.

**İPFS-B06** ***Tarixin tədrisi metodikası*** *(8 kredit, 120 saat)*

Kursda iştirak edən tələbələrə tarixin tədrisi metodikasının predmeti, vəzifələri, elmi-tədqiqat üsulları və başqa elmlərlə əlaqəsi, tarixin tədrisi metodikasının əsas inkişaf mərhələləri mövzuları tədris olunur. Tələbələr fənnin tədrisi prosesində tarix təhsilinin müasir sistemi, tarix təliminin təhsil, tərbiyə və inkişafetdirici məqsədləri, məktəb tarix təliminin məzmunu, şagirdlərin dərketmə imkanları, tarixin tədrisi zamanı müəllim və şagirdlərin fəaliyyəti, təlim vasitələri, metodları və metodik üsulları, təlimin təşkilat formaları, orta ümumtəhsil məktəblərində tarix təliminin nəticələri, müəllimin tarix dərsinə hazırlaşması, məktəb tarix kurslarının məzmunu və onun tədrisi metodikası üzərində müəllimin işi, əldə edilmiş pedaqoji nəticələrin yoxlanılması, tarix üzrə sinifdənkənar iş mövzularını öyrənirlər.

**İPF- B13** ***Yeni tarix-I*** *(6 kredit, 75 saat)*

**İPF- B14** ***Yeni tarix-II*** *(6 kredit, 75 saat)*

Fənnin əsas məqsədi 1640-1918-ci illərdə Avropa və Amerika ölkələrinin sosial-iqtisadi inkişafını, daxili və xarici siyasətlərini, bu ölkələrdə mədəniyyət və incəsənətin inkişaf etməsini, siyasi partiyaların meydana gəlməsini, habelə ayrı-ayrı ölkələrdə baş verən inqilabi hərəkatları, dövlətlərarası münasibətləri öyrənməkdir.

**İPF- B15** ***Müasir tarix-I*** *(6 kredit, 75 saat)*

Tarixin müasir və ya ən yeni dövrü I Dünya müharibəsinin qurtarması ilə başlayır. Lakin bu dövr müasir dövrlə çulğalaşdığı üçün bəzən onu müasir tarix də adlandırırlar. Ən yeni və ya müasir tarixin I mərhələsi 1918-1945, II mərhələsi isə 1945-2005-ci illəri əhatə edir. Müasir tarix əvvəlki tarixi dövrlərdən olduqca fərqlənir. Əgər tarixi bəşəriyyətin laboratoriyası adlandırsaq, həmin laboratoriyada ən zəngin materiallar müasir dövrə təsadüf edir. Kursda iştirak edən tələbələr XX əsrdə baş vermiş sosial-siyasi hadisələrin böyük bir axınını izləmiş olurlar.

**İPF- B16** ***Müasir tarix-II*** *(5 kredit, 60 saat)*

Fənnin tədrisində müasir tarixin I (1918-1945) və II (1945-2005) mərhələlərinin hər birinin özünəməxsus cəhətləri üzərində xüsusi dayanılır. Həmçinin II Dünya müharibəsindən əvvəlki dövrlə sonrakı dövrdə baş verən hadisələr arasındakı keyfiyyət fərqlərinə xüsusi diqqət yetirilir. II Dünya müharibəsindən sonra nüvə erasının başlanması, ABŞ-ın dünyanın I, SSRİ-nin II super dövlətinə çevrilməsi, soyuq müharibənin başlanması, qütbləşmə, totalitar rejimlərin iflası, dünya sosializm sisteminin dağılması, soyuq müharibənin başa çatması, hərbi blokların ləğvi, qloballaşma və qlobal problemlərin əmələ gəlməsi, dünyanın yeni güc mərkəzlərinin meydana çıxması məsələləri üzərində xüsusilə dayanılır. Həmçinin bu dövrdə baş verən məhəlli müharibələr, müstəmləkə sisteminin iflası, yeni müstəmləkəçilik, beynəlxalq terrorizmə qarşı mübarizə məsələləri də diqqətdən yayınmır.

**İPFS-B06** ***Mənbəşünaslıq*** *(3 kredit, 45 saat)*

Fənnin əsas məqsədini mənbəşünaslığın tarix elminin bir sahəsi kimi meydana çıxması və inkişaf mərhələlərinin öyrənilməsi təşkil edir. Kursda iştirak edən tələbələrə tarixi mənbə anlayışı, tarixi mənbələrin təsnifatı, Azərbaycan tarixinin ən qədim dövrə aid mənbələri, antik dövr Azərbaycan tarixi mənbələri, V-X əsr Azərbaycan tarixinə aid mənbələr, XI-XV əsr Azərbaycan tarixinin mənbələri, Səfəvi dövrü mənbələri, XVIII əsrin II yarısına aid mənbələr, Azərbaycan tarixi mənbələri XIX əsr-XX əsrin əvvəllərində, Azərbaycan Xalq Cümhuriyyəti dövrü

tarixi mənbələri, II respublika dövrünə aid mənbələr, müstəqillik dövrünə aid mənbələr mövzuları tədris olunur.

**İPFS-B03** ***Tarixi demoqrafiya*** *(4 kredit, 60 saat)*

Fənnin əhatə dairəsinə tarixi demoqrafiyanın inkişaf tarixi, istiqamətləri, mənbəşünaslığı, əhalinin yerləşməsi, strukturu, əhalinin etnik tərkibi, etnodemoqrafik durumu, miqrasiya məsələləri, yaş-cins tərkibi, konfessional vəziyyət, əhalinin təbii və mexaniki hərəkəti mövzuları daxildir. Tələbələrə həmçinin ən qədim inanclar, miflər, Hindistanda yaranan dinlər, şamançılıq, iudaizm, xristianlığın meydana gəlməsi, İslam dininin meydana gəlməsi, səlib müharibələri, sivilizasiyaların toqquşması və dialoqu mövzuları tədris olunur.

**İPFS-B02** ***Antropologiya*** *(3 kredit, 30 saat)*

Fənnin tədrisinin başlıca məqsədi tələbələrdə insan və onun ümumi antropologiyası, genezisi və irqi-etnik müxtəlifliyi haqqında elmi-nəzəri biliklərin formalaşdırılmasıdır. Əhatə dairəsinə daxil olan mövzular mənbşünaslıq bazası, antropogenez, Azərbaycan antropologiyası, fizioloji antropolgiya bölmələri üzrə tədris olunur.

**İPFS-B04** ***Azərbaycanın tarixi coğrafiyası*** *(3 kredit, 46 saat)*

Fənnin əhatə dairəsinə Azərbaycanın tarixi ərazisi, Azərbaycanın fiziki-coğrafi durumu, fənnin tarixşünaslığı və mənbəşünaslığı, Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Azərbaycan tarixi coğrafyası şöbəsinin aşılması və iş fəaliyyəti, Azərbaycanın ərazisində mövcud olan dövlətlərin qədim dövrdən müasir dövrə qədər tarixi coğrafiyası, müasir dövrdə ərazi bütövlüyü uğrunda mübarizə mövzuları daxildir.

**İPFS-B05** ***Azərbaycan toponomikası*** *(3 kredit, 45 saat)*

Toponimlər müəyyən bir xalqın, tayfanın adından və həmin xalqın dillərindəki coğrafi obyekt ünvanlı sözlərdən ibarət olduğu üçün xüsusi ilə tarix elmi ilə bağlıdır. Kursda iştirak edən tələbələrə Qarabağ, Füzuli, Zəngilan, Qubadlı, Xocalı, Laçın, Borşalı, Kəlbəcər, Kürdəmir, Saatlı və digər rayonların toponimikası ilə bağlı araşdırmalar haqqında məlumat verilir. Tədris prosesində Qarabağın tarixi keçmişi, Azərbaycana aid ərazi olmasını təsdiq və sübut edən

toponimlərin araşdırılması məsələlərinə xüsusi diqqət yetirilir. Azərbaycan toponimlərinin tarixinin və dil mənsubiyyətinin öyrənilməsi mövzusus da diqqət mərkəzində saxlanılır.

**İPF- B24** ***Etnoqrafiya*** *(5 kredit, 60 saat)*

Azərbaycan etnoqrafiyasının mühüm tərkib hissəsi olan maddi mədəniyyət və ailə-məişət məsələləri haqqında bilgilər, yaşayış məskənləri, geyimlər, bəzək əşyaları, milli mətbəx, nəqliyyat vasitələri və s. kimi maddi mədəniyyət sahələri, həmçinin mərasim məsələlərinin işıqlandırılması, Azərbaycan xalqının Qafqazda mədəniyyət yayan bir xalq kimi mənəvi mədəniyyət məsələləri, farmakalogiya və dərmanşünaslığın inkişafında böyuk xidmətləri olan xalq təbibləri və təbabəti, 12 heyvanla bağlı olan türk təqviminin Azərbaycanda ən qədim zamanlarda istifadəsi mövzuları fənnin əhatə dairəsindədir. Tələbələrə həmçinin Azərbaycanın təbii coğrafi şəraiti, tarixi əkinçilik və maldarlıq mədəniyyəti, ən qədim məşğulluq sahəsi sayılan balıqçılıq və el sənətkarlığı haqqında da məlumat verilir.